Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
ilə Rusiya Federasiyasının Dövlət Statistika Komitəsi
arasında statistika sahəsində əməkdaşlıq haqqında

# S A Z İ Ş

Bundan sonra Tərəflər adlandırılan Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Rusiya Federasiyasının Dövlət Statistika Komitəsi,

statistika sahəsində əməkdaşlığın inkişafında, informasiya mübadiləsinin genişləndirilməsində və hər iki dövlətin statistika orqanlarının işində qarşılıqlı fəaliyyətin gücləndirilməsində maraqları olduqları üçün,

aşağıdakılar barədə razılığa gəldilər:

## M a d d ə 1

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

-statistika göstəriciləri sistemlərinin yaradılması və işləməsinə dair metodoloji materialların və tədqiqatların, statistik müşahidə, siyahıyaalma və müayinələrin keçirilməsi proqramları və metodlarının mübadiləsi;

-hər iki Tərəfi maraqlandıran mövzular üzrə statistik informasiyanın mübadiləsi;

-öz ölkəsinin və onun ayrı-ayrı regionlarının sosial-iqtisadi vəziyyətinə dair öz dövlətində dərc edilən statistik nəşrlərin (illik və adi məcmuələrin, bülletenlərin, məlumatların, xülasələrin və s.) mübadiləsi;

-kompüterlərdən istifadə edilməsi, yeni informasiya texnologiyalarının tətbiq edilməsi üzrə təcrübə mübadiləsi, statistik məlumatların avtomatlaşdırılmış banklarının yaradılmasına yardım göstərilməsi;

-statistika sahəsində fəaliyyətin yeni istiqamətləri və statistikada müasir tələblərə uyğun islahatların aparılmasına dair tədbirlərin həyata keçirilməsinin gedişi haqqında informasiya mübadiləsi;

-ilkin uçotun təkmilləşdirilməsi, milli hesablar sisteminin tətbiqinin təşkil edilməsi məsələləri üzrə təcrübə mübadiləsi;

-uçot və statistika məsələləri ilə əlaqədar birgə elmi tədqiqatların aparılması, birgə texniki layihələrin hazırlanması;

-dövlət statistika orqanlarının fəaliyyətində ən yeni istiqamətlərin və qabaqcıl iş təcrübəsinin öyrənilməsi məqsədi ilə birgə müşavirə, seminar və konfransların təşkil edilməsi;

-beynəlxalq statistika orqanlarında və onlar tərəfindən keçirilən tədbirlərdə iştirak etmək məsələlərində birgə fəaliyyət;

-lazım gəldikdə, müştərək informatika müəssisələrinin, agentliklərinin yaradılması.

## M a d d ə 2

Tərəflər onların tabeliyində olan təşkilatlar və idarələr arasında təsərrüfat müqavilələrinin bağlanmasına kömək edirlər.

## M a d d ə 3

Tərəflər yeri gəldikcə bu Sazişin yerinə yetirilməsinin gedişini, onun həyata keçirilməsi prosesində meydana çıxan problemləri nəzərdən keçirəcək və onların həllinə dair tədbirlər görəcəklər.

## M a d d ə 4

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların Tərəflərin yerinə yetirilməsi haqqında diplomatik kanallarla sonuncu bildirişin göndərildiyi tarixdən qüvvəyə minir.

Bu Saziş 3 il müddətinə bağlanılır və növbəti müddətin bitməsinə ən azı 6 ay qalmış Tərəflər bir-birinə onun qüvvəsinə xitam vermək niyyəti haqqında bildiriş verməzsə, Sazişin qüvvəsi avtomatik olaraq sonrakı üç illik müddətlərə uzadılır.

Moskva şəhərində 2001-ci il "24" aprel tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

| Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Adından | Rusiya Federasiyasının Dövlət Statistika Komitəsi Adından |
| --- | --- |